# Unudulmaz əməkdar jurnalist



Onun həyat yolu Cəlilabaddan - 1952-ci ilin iyulunda dünyaya göz açdığı Seyidbazar kəndindən başlayır. 1969-cu ildə Cəlilabaddakı Nizami Gəncəvi adına 1 saylı orta məktəbi bitirən Sabir Mustafayev Bakı Maliyyə-Kredit Texnikumunda təhsil alır. Bir müddət maliyyə-bank sistemində çalışır. O zaman çoxları elə düşünürdü ki, gənc mütəxəssis bu sahədə qalıb işləyəcək, çünki işini pis bilmir və peşəkarlıq nümayiş etdirirdi. Lakin bütün bunlar onun zahiri görüntüləri idi, əslində isə daxilində bir çaşqınlıq vardı. Ona elə gəlirdi ki, seçimini düz etməyib, hansısa bir qüvvə onu başqa bir səmtə çəkirdi. Məhz həmin qüvvə onu Jurnalist Sənətkarlığı İnstitutuna, daha sonra Bakı Dövlət Universitetinə gətirib çıxardı.

1982-ci ildə Cəlilabadda çıxan "Yeni gün" qəzeti redaksiyasında korrektor kimi işə başlayanda artıq istəklərinin bir addımlığında dayanmışdı. Az sonra müxbir, şöbə müdiri vəzifələrində çalışan Sabir Mustafayev Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin orqanı olan "Respublika" qəzetinin Muğan-Aran bölgəsi üzrə xüsusi müxbiri təyin olunur. Onun fəaliyyət sahəsi daha da genişlənir, məsuliyyəti bir az da artır.

Sabir Mustafayev nədən yazırdısa, haqqa söykənir, halallığa tapınır, ədalətin bərpasına çalışırdı. Çalışdığı bölgənin adamlarını, üz tutduğu kollektivlərin üzvlərini həmişə özünə yaxın, doğma bilib müdriklərdən, ağsaqqallardan öyrənir, çətinə düşənlərin karına gəlir, xeyir-şər məclislərində təşəbbüskarlıq göstərir, el-oba üçün nəsə etməyə çalışırdı.

Onun bir-birindən maraqlı yazılarında insanların taleyi, Muğan-Aran bölgəsinin qayğıları, rayonlarımızın tərəqqisi, çiçəklənməsi öz əksini tapırdı. Sabir müəllimdə jurnalistə – yaradıcı insana xas olan sadəlik, səmimilik, alicənablıq, insanları duymaq, onlara qiymət vermək bacarığı vardı. O deyirdi: "Jurnalistin peşəsi sadə, sadə göründüyü qədər də mürəkkəb, çətin peşədir. Bu sahədə çalışan hər kəs öz üzərində daim işləməli, axtarışda olmalıdır. Müxbir hər bir müsahibinə fərdi yanaşmalı, yazdığı sahəyə yaxından bələd olmalı, nədən və necə yazmağı gözəl bilməlidir. Ölkə başçısı öz çıxışlarında dəfələrlə vurğulayıb ki, cəmiyyətdə bütün maddi imkanlar insan kapitalına yönəldilməlidir. Mətbuatın da əsas vəzifəsi məhz kamil insan yetişdirməyə xidmət etməkdən ibarətdir. Bunun üçün isə ilk növbədə jurnalistin özü kamillik zirvəsində olmalıdır".

Sabir Mustafayev doğma el-obanı, onun sakit həyatını, təbiətini, sadə, zəhmətkeş insanlarını, dədə-baba ocağını hər şeydən üstün tuturdu. Onun önəm verdiyi dəyərlər arasında doğma kəndinin öz yeri vardı. Uşaqlıq, yeniyetməlik çağlarının çox hissəsini keçirdiyi bu kənddə valideynləri, müəllimləri və digər yaxşı insanlardan aldığı ağıllı məsləhətlər Sabir müəllim üçün həyatda öz yerini müəyyənləşdirməkdə böyük rol oynamışdı. Kamala yetişməsində, düzgün mövqe seçməsində xidməti olan kəsləri ömrünün sonunadək hörmətlə xatırlayırdı. Uzun illər çalışdığı "Respublika" qəzetinin kollektivi barədə isə həmişə belə söyləyirdi: "Əgər sıralarında çalışdığım insanlar olmasaydı, yəqin ki, uğurlarım da olmazdı..."

Həmkarımız həm də gözəl ailə başçısı idi, həyat yoldaşı ilə birgə 5 övlad böyüdüb tərbiyə etmişdi. Onların hər biri həyatda öz yolunu seçib, hərəsi öz sahəsində vicdanla çalışır, halal çörəyini qazanır, doğma Vətənimizin çiçəklənməsi naminə əməyini əsirgəmir.

Ötüb keçən bu illər yaradıcılıq baxımından da izsiz ötüşməmişdi. O, çoxlu sayda publisist yazıların, məqalələrin müəllifi idi, 4 kitabı işıq üzü görmüşdü. "Tərəqqi" medalına, "Qızıl qələm", "Araz" ədəbi mükafatlarına layiq görülmüşdü.

2015-ci ildə Milli Mətbuatımızın 140 illiyi münasibətilə ölkə başçısının sərəncamı ilə "Əməkdar jurnalist" fəxri adını almışdı.

O həm də baş redaktorun müavini olduğu qəzetin hörmətinin, nüfuzunun artmasına, yüksəlməsinə daima çalışan fədakar jurnalist, peşəkar qələm adamı idi. Sabir müəllim təhkim olunduğu rayonlarda səmərəli fəaliyyət göstərir, redaksiyanın onun qarşısında qoyduğu tapşırıqları həmişə şərəflə yerinə yetirməyə çalışırdı.

O, Vətən torpağını qəlbinin dərinlikləri ilə sevən əsl vətəndaş idi. Bu barədə onun öz düşüncələri vardı: "Azərbaycanın hər yeri eyni dərəcədə doğma və əzizdir. Doğma yurdun, el-obanın qədrini bilmək, onun təəssübünü çəkmək, şöhrətini artırmaq, milli-mədəni dəyərlərimizi göz bəbəyi kimi qorumaq hər birimizin borcudur. Bu illərdə həyatda öz izi olan çox insanlar görmüşəm və milli dəyərlərimiz məhz belə insanların çiyinlərində yüksəlib. Cəmiyyətin inkişafında hər kəsin öz yeri var. Əgər mən də xalqıma gərəkli bir iş görə bilmişəmsə, deməli, ömrü hədər yaşamamışam..."

Ömrü nəyə bənzətmirlər?.. Nağıla, karvana, coşqun çaya, axıb gedən buludlara... Ömür həm də pillələrdir, bir-bir, aram-aram yüksəldiyimiz pillələr. Sabir müəllim də ona yazılan ömrün cəmi 64 pilləsini arxada qoya bildi. Ölüm onu aramızdan, sıramızdan apardı. Görünür Tanrı yazan ömür payı bu qədərmiş.

Sabir Mustafayev onu tanıyanların qəlbində həmişə xoş xatirələrlə anılacaq.

Allah rəhmət eləsin!..

**"Respublika"nın kollektivi.**